Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# "Orduya gedən gənclərimizin döyüşə hazır olmaq çağırışları yüksək nailiyyətdir"

## Zaur Əliyev: "Prezidentin çıxışları gənclərimizə ruh yüksəkliyi verir"



**Hər bir millətin gələcəyi onun sağlam düşüncəli, bilikli və bacarıqlı gəncindən asılıdır. Dövlətin də əsas vəzifəsi məhz belə sağlam düşüncəli, Vətəninə, dövlətinə sadiq gənclər yetişdirməkdir. Etiraf etmək lazımdır ki, bu gün Azərbaycan dövləti səviyyəsində bu istiqamətdə müvafiq işlər görülür, lazımi addımlar atılır. Ancaq onu da qeyd etməliyik ki, bəzən görülən işlər heç də kifayət etmir və istənilən nəticə əldə edilmir. Bəs görəsən gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsi, onlarda vətənpərvərlik hisslərinin artırılması istiqamətində hansı zəruri tədbirlər görülməli, addımlar atılmalıdır. Bu və ya digər suallarla bağlı Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə və Hüquq İnstitutunun əməkdaşı, Siyasi elmlər üzrə fəlsəfə doktoru Zaur Əliyevlə söhbətləşdik.**

***-Zaur bəy, bu gün Azərbaycan gənci nə dərəcədə vətənpərvərdir?***

-Gəlin bu suala bir qısa izahla başlayaq. Vətənpərvər nə deməkdir? Vətəni sevən. Vətən özü nədir? İnsanın doğulub boya başa çatdığı bir məkan. Deməк Vətən özü bir ailədir. Ailə isə hər bir şəxs üçün vacib bir amildir. Bu gün biz vətənpərvər axtaranda ilk öncə buna sağlam ailə-valideyn tərbiyəsi kontekstində baxmalıyıq. Bu gün ailələr əvvəlki kimi övladlarını mühafizəkar böyütmürlər. Qloballaşan dünyada modern ailə tipi formalaşdırıb övladlarını tolerant olmağa kökləyirlər. Tolerantlıq isə xalq diplomatiyasına aparıb çıxarır. Bu isə düşməni unut-ona əl uzat kimi psixoloji təsirə gətirib çıxarır. Bu zaman isə artıq tarix və tarixin müxtəlif dövrlərində xalqa qarşı düşmənin yeritdiyi siyasətin unudulmasına yol açır. Necə ki, bizlərə Gülüstanı, Türkmənçayı unutdurmağa cəhd göstərdilər, 1905, 1915 və 1918-ci illərin qırğınlarını yaddaşlarımızdan silmək siyasəti yeritdilər və indi də Qarabağın işğalı və Xocalı soyqırımını bağışlatmağa çalışırlar. Bunun günahı isə xarici media və qərb dəyərlərinin ailələrə təsirindən irəli gəlir. Müasir filmlər, yazılan kitablar, çıxışlar və seriallar ailələri tolerantlığa doğru aparır. Bu da birbaşa xarici təşviqatçıların maraqlarına tam uyğun gəlir. Səhv etmirəmsə bir müddət öncə gənclər arasında keçirilən sorğuda "Vətənpərvərlik hissi necə formalaşmalıdır?" sualının nəticələri belə olmuşdur: 18 faiz ailədə, 37 faiz orta məktəbdə, 4 faiz ali təhsil ocaqlarında, 19 faiz ictimai təsisatlar vasitəsilə, 22 faiz insanın öz daxilində. Bu rəqəmlər ciddi bir böhranı göstərir. Demək gənclər arasında 22 faiz yalnız öz daxilində bunu görür. Qalanları isə ailədən tutmuş digər sahələrin təbliğatında çarə axtarır. Etiraf edək ki, bizdə vətənpərvərlik anlayışında ciddi boşluq var. Axı vətən təkcə insanın yaşadığı evlə əhatə olunmalı deyil. İlk olaraq gənc düşünməlidir ki, vətən anlayışı onun həyatindən çıxmalı və məhləni, məhlədən sonra küçəni, küçədən sonra qəsəbəni, qəsəbədən sonra kəndi, kənddən sonra şəhəri, şəhərdən sonra regionu və regiondan sonra isə dövləti əhatə etməlidir. Lakin bizim gənclərin əksəriyyəti üçün hələ də həyat anlayışı var və onlar öz həyatlarını həyətlərindən kənara çıxara bilmirlər.

***-Gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsi, onlarda vətənpərvərlik hisslərinin artırılması istiqamətində hansı addımların atılmasını zəruri hesab edərdiniz?***

-Bu sahədə boşluğumuz çoxdur. Təkcə Şəhidlər Xiyabanına uşağı ziyarət etdirməklə vətənpərvər nəslin yetişməsinə ümid edə bilmərik. Mən ail məktəbdə dərs deyirəm. Bir yəhudi tələbəm var və o, deyir ki, mən İsraildə daha çox vətənpərvərəm nəinki burada. Soruşanda bildirir ki, orada bağçadan tutmuş ali məktəbə qədər hər bir təhsil müəssisəsində həftəlik vətənpərvərlik mövzusunda filmlər göstərirlər. Biz ona baxa-baxa vətəni tanıyırıq. Amma sizdə efirdə sadəcə şou və idmandır. Düşünürəm ki, gənc haqlıdır. Bax bu yollar olmalıdır ki, gənclər vətənpərvər olsun. Vətəni sevməyi öyrənsin. Ermənilər işğal altında olan ərazilərimizdə küçələrdə döyüşçülərin rəsmlərini asırlar. Bizdə hansı küçədə belə bir fotosərgi var? Heç birində. Bu gün məktəblərdə qəhrəmanlıq göstərmiş bütün şəxslər, fərq qoyulmadan təbliğ olunmalıdır. Təəssüflər olsun ki, biz bunun şahidi olmuruq. Bir-iki qəhrəman haqqında kitablarda var, vəssalam. Ümumiyyətlə təhsil sistemində "Qəhrəmanlar" mövzusunda ayrıca bir dərslik olmalıdır. Burda tarixdən bu günə qədər Vətən uğrunda can qoyan şəxslər haqqında xüsusi bilgilər olmalıdır. Orta məktəbdə hansı gəncə yaxınlaşırsan Rembo, Brusli, Sezar, Terminator adlarını eşidirsən. Babəkdən tutmuş Mübariz İbrahimova qədər olan dövrdə bir qəhrəmanımızın adını tək-tük şəxs bilə-bilməyə. Təəssüflər olsun ki, bu gün bəzi gənclərimiz tolerant düşüncələrlə yaşayır, hansısa xarici filmlərdəki rolların ifaçılarını özünə qəhrəman seçir. Bu çox təəssüf doğuran bir haldır. Hesab edirəm ki, gənclərimiz məhz onların həyat və yaradıcılığını öyrənməli, onların yolu ilə getməyə çalışmalıdır. Nəinki hansısa xarici film qəhrəmanının. Gənclərimizin vətənpərvər böyüməsi üçün ilk olaraq tolerant düşüncənin vətən sevgisini üstələməsinin qarşısını almalıyıq. Bunun üçün efir və media ilə yanaşı sosial şəbəkələrdə ciddi işlər aparılmalıdır.

***-Sizcə QHT və gənclər birlikləri gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə öz fəaliyyətlərində kifayət qədər yer ayırırlarmı?***

-Tam razı deyiləm. Çünki QHT-lərin özlərinin iş prinsipləri düzgün qurulmayıb. Baxırsan birinin büdcəsi azdır, layihə işləyir bu istiqamətdə. Nə edəcək? Yaxud digərinin büdcəsi böyükdür, lakin onların məqsədi layihədən müsbət nəticə deyil, daha çox maddiyyat əldə etməkdir. Təlim, kitabça paylamaq, bayraq yelləndirmək və sairə ilə QHT işləməli deyil. Yaxud gedib bir istirahət mərkəzində beş günlük təlimlə gənc vətənpərvər olacaqmı? Bizdə QHT-lərin çoxu bəli, çoxu sırf madiyyatı düşünür. Sırf gəlir əldə etməyi. Vətənpərvrlik mövzusunda ciddi iş görmək isə başqa işdir. Sizin vasitənizlə bir neçə layihə təklif edirəm onlara, gedib icra etsinlər. 10 günlük ali və orta məktəbdə oxuyan gəncləri aparsınlar qəsəbələrə, orda qalsınlar yerli gənclərə qaynayıb qarışsınlar. Yaxud sosial çarxlar çəksinlər, sərhəd bölgəsində yerləşən məktəblərə gedib 10 gün onlarla bir parta arxasında otursunlar. Futbol oynasınlar, gecələr yığışıb ocaq ətrafında dərdləşsinlər. Danışsınlar. Vətəni göstərsinlər, gənclər özləri sevəcəklər. Yoxsa otellərin konfrans zallarından vətənin ancaq bir hissəsi, kiçik hissəsi görünür.

***-Bəs KİV- lər və televiziya kanalları bu mözvuya nə dərəcədə həssas yanaşırlar?***

-Az da olsa şükür mediamızda bu barədə iş aparılır. "OLAYLAR", "Azərbaycan" və "Xalq qəzeti", Lent.az, Olke.az və digər elektron sayt və qəzetlər, AzTV, İctimai Televiziya kanalı və ANS bu sahədə iş görürlər. Lakin müasir dövr üçün bu çox-çox aşağı göstəricilərdir. Mediada qəhramanlarımız, işğal olunmuş rayonlarımız, tariximiz, bayrağımız, totemlərimiz, sərkərdələrimiz haqqında məlumat qıtlığı var. Sənədli filmlərimiz azdır, sosial çarxlarımız məhduddur. Birinci Qarabağ müharibəsinin qazilərindən müsahibələr və şəhidlərin döyüş yolu barədə məlumatlar kifayət qədər yüksək səviyyədə deyil. Araşdırma yazılarında mediada daha çox şou biznes və idman, kriminal yazılara çox yerlər verilir. Hesab edirəm bu mütləq nəzərə alınmalıdır. Mediamız cəhbə bölgələrinə, tarixi bölgələrimizə səfərlər etməlidir. Ordan reportajlar olmalıdır.

***-Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tez-tez cəbhə xəttinə səfər etməsi, əsgər və zabitlərlə görüşməsi gənclərin vətənpərvərlik hisslərinin artırılmasına nə dərəcədə müsbət təsir göstərir?***

-Son vaxtlar bu sahədə aparılan işlər yaxşıdır. Keçən ilin avqust ayında baş verən proseslər, Cənab Prezidentin Ağdama səfəri və orada söylədiyi fikirlər gənclərimizdə böyük ruh yüksəkliyi yaratdı. Ordiya gedən gənclərimizin döyüşə hazır olmaq çağırışları yüksək nailiyyətdir. Prezidentin çıxışları gənclərimizin ruh yüksəkliyi üçün əsl motivasiyadır. Cənab nazir Zakir Həsənovun də əsgərlərin yanında tez-tez olması hərbi xidmətə axına səbəb olub. Əvvəllər xəstə çıxmaq istəyən gənclər indi hərbi xidmətə getmək üçün can alırlar. Bütün bunlar yaxşıdır, kaş digər məmurlar da Prezident və Nazirdən nümunə götürə biləydilər.

Yazı Azərbaycan Respublikası Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap edilmişdir